# Gədəbəy kartofunun əvvəlki şöhrəti bərpa olunacaq

## *Dağlar qoynunda məhsul yığımı davam edir*

***Gədəbəydə kartof yığımına başlanıb. Bir neçə gündür ki, fərdi təsərrüfatlardan, fermerlərin yetişdirdikləri sahələrdən bu əvəzsiz məhsulu tez və itkisiz yığmaq üçün bütün imkanlardan maksimum istifadə olunur.***

Aran yerləri ilə müqayisədə xeyli gec yetişən məhsul, görəsən, bu il bol olacaqmı? Sual indi rayonda hamını düşündürür. Xüsusilə yerli icra orqanları kifayət qədər məhsul götürmək üçün əllərindən gələni ediblər. Yalan-gerçək, bir neçə il qabaq Gədəbəydə bir mövsümdə 200 min tondan çox kartof tədarük edilib. İndi nə oldu? Artıq 4-5 ildir ki, 100-120 min tonu keçmir. Bəlkə bu il gözlənilən həddə çatmaq mümkündür? Özü də buna 2-3 ildir ki, çalışırlar. Xüsusilə rayon icra hakimiyyətinin başçısı İbrahim Mustafayev Gədəbəy kartofunun əvvəlki şöhrətini bərpa etmək üçün çox iş görür: fermerlərlə, mütəxəssislərlə tez-tez görüşür, məsləhətləşir, öz tövsiyələrini bildirir, başlıcası isə konkret kömək göstərir.



Rayon rəhbəri ziyanvericilərə qarşı mübarizənin yeni metod və üsullarının tətbiqini, dərman preparatlarının tapılıb rayona gətirilməsini, yeni və daha məhsuldar sortların əkilməsini məsləhət görür, bu işdə yardımçı olur. Axı, Gədəbəydə nə vaxta kimi "Ağçiçək", "Telman" kimi kartof sortları əkiləcək? Eyni torpaqda, eyni sortların illər boyu əkilməsi gec-tez onların məhsuldarlığının azalmasına, ziyanvericilərə qarşı dözümsüz olmasına gətirib çıxarır. Bunları heç mütəxəssis olmayanlar da bilirlər.

Bəli, əvəzsiz sortlardır, dadı və keyfiyyəti başqa kartoflarda yoxdur. Amma "Ağçiçək" kartofu tapmaq mümkündürmü? "Telman" da onun kimi. Adda-budda yerlərdə becərələr, ya becərməyələr. Bax, bütün bunları nəzərə alaraq rayon icra hakimiyyətinin təşəbbüsü ilə aprel ayında Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun alimləri tərəfindən müasir seleksiya yolu ilə yeni yaradılan "Uğur", "Çənlibel", "Vaqif" və "Turan" kartof sortlarının Gədəbəy rayonunun Slavyanka kəndi ərazisində sınaq əkinləri aparılıb. Sınaq əkinində Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutunun mütəxəssisləri, Gədəbəy Dövlət Aqrar İnkişaf Mərkəzi, yerli icra hakimiyyətinin nümayəndələri və fermerlər iştirak ediblər.

Yeni kartof sortlarının yerli şəraitə uyğunluğu, keyfiyyəti, məhsuldarlığı ətraflı öyrənildikdən, dəfələrlə müzakirələr aparıldıqdan sonra əkilib. Məlumat üçün qeyd edək ki, bu dörd yeni sort həm dəmyə, həm də suvarılma şəraiti olan bölgələr üçün də əlverişlidir. Eyni zamanda, hazırda əkin dövriyyəsində olan mövcud sortlardan məhsuldarlığı 30-40 faiz çoxdur.

Slavyankadakı bu əkin sahələrinin vəziyyəti ilə maraqlandıq. Rayon dövlət aqrar inkişaf mərkəzinin direktoru Asif Nağıyev dedi ki, bu həftənin bazar ertəsi mütəxəssislərin, icra hakimiyyəti başçısının, digər əlaqəli şəxslərin müşayiəti ilə yetişdirilən məhsul çıxarılaraq baxış keçirildi və vəziyyət öyrənildi, təhlil olundu. Gözləntilərimiz çoxdur və məhsuldarlığın yüksək olacağına inanırıq.

Əslində, istənilən nəticə alınsa, bundan sonra xaricdən toxum alıb gətirməyə ehtiyac qalmayacaq. Yəni kartof toxumuna olan tələbatı tam yerli istehsalın hesabına ödəmək mümkün olacaq. Çünki indiyədək təkcə Gədəbəydə deyil,Tovuz və Şəmkir rayonlarında da yetişdirilən kartof sortları əhali arasında məşhurdur. Çünki bu kartoflar keyfiyyəti, dadı və tərkibindəki mikroelementlərə görə digər xarici sortlardan ciddi şəkildə fərqlənir. Onlar yerli şəraitə uyğunlaşıb, ziyanvericilərə, xəstəliklərə qarşı dözümlüdür. Təbii ki, adlarını çəkdiyimiz bu 4 sort kartof da istisna təşkil etməyəcək.

Yuxarıda qeyd etdik ki, Gədəbəydə "ikinci çörəyin" bol və məhsuldar olması, torpaqla məşğul olan insanların kartof əkinindən səmərə götürməsi üçün icra hakimiyyəti, Kənd Təsərrüfatı Nazirliyi, elmi-tədqiqat institutları, imkanlı iş adamları hər cür şərait yaratmağa çalışırlar. Keçən il rayon üzrə 10 min 400 hektardan çox sahədə kartof əkilmiş, aqrotexniki qaydada becərilmə işləri aparılmış və hər hektar sahədən 120,9 sentner məhsul götürülmüşdür. Amma yenə də cəmi 125 min 735 ton kartof əldə etmək mümkün olmuşdur.

2020-ci il ərzində 1100 hektardan çox kartof sahəsində "Kolorado" kartof böcəyinə qarşı müşahidə aparılmış və 1058,73 hektar sahədə sirayətlənmə müşahidə edilmişdir. Aqrotexniki qaydalara uyğun olaraq 832,77 hektar sahədə büdcə, 157,34 hektar sahədə isə vətəndaşların öz vəsaitləri hesabına kimyəvi mübarizə tədbirləri aparılmışdır.

Bəs bu il vəziyyət necədir? Rəqəmlərə nəzər salaq. 2021-ci ilə rayon ərazisində 10 min 44 hektar sahədə (yəni keçən ildəkindən bir qədər az) kartof əkilmiş, onlara yüksək aqrotexniki qulluq göstərilmiş, ziyanvericilərə qarşı 714 hektar sahədə kimyəvi mübarizə tədbirləri aparılmışdır. Burada işə və məhsuldarlığa müsbət təsir edən bir amili də unutmamalıyıq. İndi rayonda fermerlərlə, hətta fərdi təsərrüfatları olan adamlarla maarifləndirici görüşlər, söhbətlər aparılmasına xüsusi diqqət yetirilir. Etiraf etmək lazımdır ki, əvvəllər belə olmayıb. Kim necə istəyibsə elə öz bildiyi kimi əkib-becərib, məhsuldarlıq barədə düşünən az olub.



Rayonda fərdi təsərrüfatlarda böyük həcmdə kartof əkib becərən fermerlər var. Sakit Yahyayev bu il 16 hektar sahədə, Oktay Xəlilov isə 20 hektar sahədə kartof əkib. İmran Həsənov 6 hektardan, Vaqif Məmmədov isə 7 hektardan məhsul yığacaq. Fermerlər hər zaman bu sahədə dövlət dəstəyini hiss edirlər. Təsadüfi deyil ki, rayonun Daşbulaq kənd sakini Hatif Fərzəliyev Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə kənd təsərrüfatının inkişafındakı xidmətlərinə görə 2-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilmişdir. Keçən il 7,5 hektar sahədə bol kartof yetişdirən təcrübəli fermər bu il daha yüksək göstəricilər əldə etmək niyyətindədir.

...Öz kartofçuluq ənənəsi olan Gədəbəydə bu sahənin işinə mane olan problemləri axtarıb tapıblar. Onlar hansılardır? Əvvəla, bəzi hallarda mənşəyi bəlli olmayan, keyfiyyətsiz, məhsuldarlığı aşağı olan toxumlardan istifadə edilir. İkincisi, toxumluq kartof istehsal olunarkən tərkibinin təxminən 75 faizinin su olması və buna görə də çətin saxlanılması, hər hektar sahəyə ən azı 3 ton toxumluq material işlədilməsi, xəstəliklərin sürətlə yayılması və digər amillər sonda lazımi qədər məhsul götürülməsinə əngəl törədir. Bir sıra yerlərdə aqrotexniki qaydalara düzgün əməl olunmur. Rayonda toxumluq kartof əkinləri əsasən kiçik və dağlıq sahələrdə apardığı üçün texnikanın da manevr imkanları məhdud olur. İqlim şəraitini də nəzərə almamaq mümkün deyil.Burada kartof əkinləri dəmyə şəraitində becərildiyindən onlar tamamilə iqlimdən asılı vəziyyətə düşür. Quraqlıq keçən illərdə məhsuldarlıq və keyfiyyət nəzərəçarpacaq dərəcədə aşağı olur.

Başqa bir vacib problem ərzaq və toxumluq kartofun saxlanması üçün rayonda anbarların olmamasıdır. Adamlar əzabəziyyətlə yetişdirdikləri məhsulu öz zirzəmilərinə yığır ki, oradakı şərait də kartofun uzun müddət, həm də əvvəlki keyfiyyətini qorumaqla saxlanmasına imkan yaratmır.

...Tarixi məlumatlara əsasən, kartof bitkisi Cənubi Amerikada 8 min il bundan əvvəl becərilmişdir. Avropa qitəsinə ilk dəfə olaraq kartofu XVI əsrin ortalarında ispanlar gətirmişlər.XVIII əsrin əvvələrində isə rus çarı I Pyotr Hollandiyada olarkən bir kisə kartof əldə etmiş və onun Rusiyada yetişdirilməsinə xüsusi göstəriş vermişdir. Azərbaycanda ilk dəfə XIX əsrin birinci yarısında Gədəbəyin Hacılar kəndinə bir pud, yəni 16 kiloqram toxumluq kartof gətirilmiş və sonralar kartof ölkəmizin başqa regionlarına yayılmışdır. Bu faktı oxucunun nəzərinə ona görə qabarıq çatdırırıq ki, Gədəbəyi kartofsuz təsəvvür etmək mümkün deyil. Onun öz tarixi, ənənələri, şanı-şöhrəti var. Yaxşı ki, rayonun icra strukturları bu işə laqeyd qalmırlar. Kartofçuluğun inkişaf etdirilməsi, Gədəbəyin bu sahədə əvvəlki şöhrətini bərpa etmək üçün bütün qüvvələr səfərbərliyə alınıb.

Məhsulun daim bol olsun, Gədəbəy!

***Hamlet QASIMOV,***
***"Xalq qəzeti"nin bölgə müxbiri***